Tarix və onun problemləri, № 2 2014

**GÜLŞƏN HÜSEYNOVA**
***Azərbaycan Respublikası Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyası***
***Tarix kafedrasının doktorantı***
***E-mail: gulya_dia@list.ru***

# AMEA ILƏ TÜRK DÖVLƏTLƏRI ARASINDA ƏMƏKDAŞLIĞIN NORMATIV HÜQUQI BAZASI

*Açar sözlər :* Azərbaycan Respublikası, Milli Elmlər Akademiyası, Türk dövlətləri, Elm və təhsil əlaqələri, Saziş layihəsi.
*Ключевые слова:* Азербайджанской Республики, Национальная Академия Наук, Турецкого государства , Сотрудничество в области науки и образования,_Соглашение.
*Key Words:* Azerbaijan Republic, National Academy of Sciences , Turk volublestates, Relations of science and education, Agreement.

**Son illər ərzində Azərbaycan Milli Elmlər Akademiyası ilə Türk dövlətləri arasında elm sahəsində çoxtərəfli əməkdaşlığı həyata keçirmək üçün lazımi hüquqi baza yaradılmışdır:**

2012-ci il sentyabrın 11-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Türkiyə Elm və Texnoloji Araşdırmalar Şurası (TÜBİTAK) arasında elm və texnologiya sahəsində əməkdaşlıq haqqında protokol layihəsi imzalanıb.

12 maddədən ibarət Layihə elm və texnologiya sahəsində təcrübə mübadiləsi, elm adamları arasında gələcək əməkdaşlıq imkanlarının yaradılması və ortaq araşdırma fəaliyyətinin həyata keçirilməsi məqsədilə "TÜBİTAK Xarici Vətəndaşlar üçün Doktorantura Təqaüd Proqramı", "TÜBİTAK Xarici Vətəndaşlar üçün Araşdırma Təqaüdü Proqramı" və TÜBİTAK Qonaq Alimləri Dəstəkləmə Proqramı" nı həyata keçirir.

Layihəyə görə, birgə elmi tədqiqat işlərinin aparılması tədqiqatçıların mübadiləsi, müştərək elmi görüş, konfrans, simpoziumların keçirilməsi və sair tərəflər öz ölkələri üçün prioritet məqsədləri nəzərə almaqla ümumi maraq kəsb edən aşağıdakı sahələrdə əməkdaşlığı inkişaf etdirəcəklər :

-fundamental elmlər, energetika, yer elmləri, ictimai elmlər, tərəflərin qarşılıqlı razılığı əsasında digər əməkdaşlıq sahələri və formaları əlavə oluna bilər.[1]

## Özbəkistanla AMEA arasında əməkdaşlıq

30 iyun 2004-cü il tarixdə "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Azərbaycan Respublikasının Qanununun icrası barədə AMEA Rəyasət Heyətinin Qərarı olub.

"Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında" 23 mart 2004-cü iltarixində Daşkənd şəhərində iki ölkənin hökumətləri tərəfindən imzalanmış Saziş Azərbaycan Respublikası Prezidenti tərəfindən 21 may 2004-cü il tarixində təsdiq edilib. Sazişdə qeyd edilir ki, tərəflərin bu Saziş çərçivəsində

əməkdaşlığı və ümumi rəhbərliyi əlaqələndirən səlahiyyətli orqanlar AMEA və Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Elm və Texnologiyalar Mərkəzidir.[3]

## Qırğızıstanla Elm sahəsində əməkdaşlıq

12 aprel, 2008-ci il tarixdə Qırğızıstan Respublikasının Xarici İşlər Nazirliyi nota ilə müraciət edərək, ticarət, iqtisadi, elmi-texniki və humanitar-mədəni əməkdaşlıq üzrə Bişkekdə Azərbaycan - Qırğızıstan hökumətlərarası komissiyasının I iclasının Protokol layihəsi imzalanıb. [2]

Layihəyə əsasən, 2008-ci il iyunun 12-də Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Qırğızıstan Respublikasınn Milli Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb. 12 maddədən ibarət Sazişdə aşağıdakılar nəzərdə tutulur:

-Təhsil sistemlərinin hüquq bərabərliyi, müstəqillik və bütövlük prinsipləri əsasında faydalı əməkdaşlığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə qarşılıqlı səylərini bildirərək maarifçilik siyasəti sahəsində qarşılıqlı münasibətlərdə ümumbəşəri dəyərlərin insan hüquqları haqqında ümumi bəyannamənin, uşaq hüquqları haqqında konvensiyanın prinsiplərinin, beynəlxalq normaların şərtsiz üstünlüklərini qəbul edərək və onların əməli həyata keçirilməsinə çalışaraq, təhsil sahəsində elmiliyin və dünyəviliyin, humanizm və demokratiyanın təmin olunmasına, hər iki dövlətdə yaşayan xalqların, təhsil alanların vətəndaşlığından, etnik mənsubiyyətindən asılı olmayaraq, mədəni-təhsil tələbatının ödənilməsinə xüsusi əhəmiyyət verərək razılığa gəlinib.

Sazişin əsas məqsədi Maddə1-də daha ətraflı əks olunub :

-Tərəflər ümumi təhsil, texniki peşə, orta ixtisas və ali, eləcə də diplomdansonrakı təhsil, həmçinin elmi tədqiqatların aparılması sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.[1]

## Qazaxıstanla AMEA arasında əməkdaşlıq

2004-cü il martın 1-də Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlığa dair Saziş imzalanıb.[6] Eyni zamanda, 9 maddədən ibarət AMEA və Qazaxıstan Respublikası Milli Təhsil və Elm Nazirliyi arasında elm sahəsində əməkdaşlıq haqqında Saziş layihəsi imzalanıb .

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında elmi əlaqələrin inkişafının zəruriliyini qeyd edərək elmi tədqiqatlar texnologiya transferi və elmi mübadilə sahəsində iki ölkə arasında bərabər və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini nəzərə alaraq, elm sahəsində tədqiqat və başqa fəaliyyətlər, həmçinin idarəçilik və kitabxana sahəsində əlaqələrin genişlənməsi və inkişaf etdirilməsini dərk edərək razılığa gəliblər.

Saziş layihəsinin 6-cı madddəsində aşağıdakılar nəzərdə tutulub:

-Qazaxıstanın Milli Təhsil və Elm Nazirliyi ilə AMEA arasında hökumət xətti ilə elm sahəsində əməkdaşlıq həyata keçirilsin .

2004-cü il mayın 18-də ölkə prezidenti İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında " Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edib.

2010-cu ildə AMEA-nın Neft-Kimya Prosesləri İnstitutu elmi-texniki əməkdaşlıq haqqında Qazaxıstan D.B.Sokolovski adına Üzvi Sintez və Elektrokimya İnstitutu ilə memorandum imzalayıb. 2011-ci ildə Elmi İnnovasiyalar Mərkəzi Memarlıq və İncəsənət

İnstitutu T. Jurqenov adına Qazax Milli İncəsənət Akademiyası ilə əməkdaşlıq haqqında müqavilə imzalanıb.[1]

## Özbəkistanla elmi əlaqələr

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında texnika və informasiya elmi sahəsində əməkdaşlıq barədə 1996-cı ildə mayın 27-də müqavilə imzalanıb. Lakin, bu müqavilə aşağıdakı protokol imzalandıqdan sonra qüvvədən düşmüş hesab olunub.[4]

AMEA ilə Türkmənistan Elmlər Akademiyası arasında 2010-cu ildə sentyabrın 15-16-da Aşqabad şəhərində görüş keçirilib, danışıqlar aparılıb və protokol imzalanıb. Protokolda elmi-texniki proqram və layihələr nəzərdə tutulur.

Bu protokol Türkmənistanın Elmlər Akademiyasının baş elmi katibi Yusup Hekimov və AMEA-nın akademiki Telman Əliyev tərəfindən imzalanıb. Protokol 13 maddədən ibarətdir.

2010-cu ildə sentyabrın 16-da İstanbulda Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısı keçirilib və burada bəyannamədə Türk Akademiyası beynəlxalq təşkilatının yaradılması zəruriliyi vurğulanıb.

2011-ci ilin yanvar ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) Katibliyinin notası ilə Qazaxıstan və TDƏŞ Katibliyi tərəfindən birgə "Türk Akademiyası" beynəlxalq təşkilatının təsis edilməsi haqqında Saziş layihəsi hazırlanıb. Azərbaycan Respublikası Hökuməti sözügedən sənəd layihəsində tərəflərdən biri qismində qeyd olunur.

2011-ci ildə noyabrın 17-də Astanada yerləşən Türk Akademiyasının birinci vitse-prezidenti D.Nur-Əhməd səfirliyə müraciət edərək, Akademiyanın nəzdində Türk tarixi muzeyinin fəaliyyət göstərəcəyini bildirmiş və bununla əlaqədar, muzeydə yerləşdirilməsi məqsədilə Azərbaycandan olan dahi şəxsiyyətlərin şəkilləri, əsərləri, ixtira və kəşfləri barədə məlumatların, həmçinin qədim bəzək əşyaları və milli geyimlər, musiqi alətləri, xalılar və digər toxuma, eləcə də oyma əşyalarının əldə edilməsinə köməklik göstərilməsini xahiş etmişdir. Muzeyin ilk sərgisi 5 dekabr 2011-ci ildə həyata keçirilib.[1]

## AMEA ilə Türkiyə Respublikası arasında əməkdaşlıq

2008-ci il mayın 30-da AMEA -nın prezidenti tərəfindən "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında Saziş" barədə Sərəncam imzalanıb. [1]

2013-cü il mayın 22-də Azərbaycan Milli Elmlər Akademiyası və Türkiyə Cümhuriyyəti Əskişəhər Anadolu Universiteti arasında əməkdaşlıq haqqında Saziş imzalanıb. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında elmi əlaqələrin inkişafının zəruriliyini qeyd edərək, elmi tədqiqatlar və elmi mübadilə sahəsində iki ölkə arasında bərabər və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini nəzərə alaraq, elm sahəsində tədqiqat və başqa fəaliyyətlər, həmçinin idarəçilik və kitabxana sahəsində əlaqələrin genişlənməsi və inkişaf etdirilməsinin vacibliyini dərk edərək razılığa gəlinib. Saziş altı (5) maddədən ibarətdir :

Maddə 1:

-Tərəflər Türkiyə Cümhuriyyəti Əskişəhər Anadolu Universitetində yaradılmış Heydər Əliyev Mərkəzi ilə birlikdə tarix, ədəbiyyat, dilçilik, incəsənət, iqtisadiyyat, arxeologiya və

etnoqrafiya sahələri üzrə birgə elmi-tədqiqat işləri aparılması, monoqrafiyalar, məqalələr hazırlayıb nəşr edilməsi, Mərkəzin Azərbaycan xalqının ümummilli liderinin haqqında nəşr olunan elmi və bədii əsərlərlə təmin edilməsi, eləcə də Anadolu Universitetinin nəşrlərini Azərbaycan Respublikasının Mərkəzi Elmi Kitabxanasına, ictimai və humanitar elmləri əhatə edən elmi-tədqiqat institutlarına göndərilməsini həyata keçirməlidir.

Maddə 2:

-Tərəflər Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyətinin sosial-iqtisadi və ədəbi-mədəni əlaqələrinin ən müxtəlif problemlərinə dair ortaq simpoziumlar, seminarlar, müzakirələrin təşkil edilməsi, Anadolu Universitetinin əməkdaşlarının AMEA-da keçirilən elmi tədbir və forumlara, həmçinin Anadolu Universitetində keçirilən elmi və mədəni tədbirlərə Azərbaycan Milli Elmlər Akademiyasının tanınmış alimlərinin dəvət edilməsini öhdəliyə götürürlər.

Maddə 3:

-Tərəflər həmçinin kitab mübadiləsini təmin etməli, dövri nəşrlərin mübadiləsi ilə məşğul olmalı, eləcə də AMEA-nın Tarix, Ədəbiyyat, Dilçilik, İncəsənət və İqtisadiyyat, Arxeologiya və Etnoqrafiya İnstitutları ilə birlikdə kitablar və məqalələr hazırlayıb nəşr etdirilməsini təmin etməli, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında çalışan görkəmli alimləri, Anadolu Universitetinin tələbələri, Heydər Əliyev Mərkəzinin dinləyiciləri üçün İnformasiya Texnologiyaları İnstitutunun vasitəsi ilə video dərsləri təşkil etməlidirlər. Saziş tərəflər arasında beş il müddətinə bağlanıb.

Azərbaycan Milli Elmlər Akademiyası və Türkiyə Elm və Texnoloji Araşdırmalar Şurası arasında Elm və texnologiya sahəsində əməkdaşlıq haqqında (5 illik müddətə) 12 maddədən ibarət Protokol imzalanıb. Protokolda elmi –texniki əməkdaşlığın hər iki dövlətin milli iqtisadiyyatının inkişafındakı əhəmiyyətini dərk edərək, elmi-texniki əməkdaşlıq əlaqələrinin bərabərhüquqlu və qarşılıqlı fayda prinsipləri əsasında möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq, birgə elmi-tədqiqat işlərinin aparılması, alim və tədqiqatçıların mübadiləsi, davam edən tədqiqat prosesləri barədə informasiya mübadiləsi, yeni elmi üsulların mənimsənilməsi, mülahizələrin keçirilməsi, müştərək proqramların həyata keçirilməsi üçün yeni elmi əlaqələrin təsis edilməsi, elmi tədbirlərdə iştirak və sair əməkdaşlıq növləri nəzərdə tutulub. Müştərək elmi görüş, konfrans, simpozium, kurs, seminar, sərgi keçirilməsi, elmi-texnoloji məlumatların və sənədlərin mübadiləsi, tədqiqat və tərəqqi üçün qurğu və avadanlıqların birgə istifadəsi, qarşılıqlı razılıq əsasında elmi və texnoloji əməkdaşlığın digər növləri qarşılıqlı əməkdaşlıq sahələri üçün nəzərdə tutulub.

Tərəflər öz ölkələri üçün prioritet məqsədləri nəzərə almaqla, ümumi maraq kəsb edən sahələrdə əməkdaşlığı aşağıdakı şəkildə inkişaf etdirəcəklər :

-Fundamental elmlər , Energetika, Yer elmləri, Ictimai elmlər .

Protokolda Maddə 5 :

- Müştərək Komitənin yaradılması –müştərək proqram və layihələrin həyata keçirilməsinə yardım , ikitərəfli elmi və texnoloji əməkdaşlıq nəticəsində yaranan təcrübə mübadiləsinə dəstək və onun gələcək inkişafı üçün təkliflərin qiymətləndirilməsini nəzərdə tutur.

Digər maddələrdə “Müştərək Tədqiqat və Tərəqqi” Layihələri, müştərək görüşlərin təşkili , elmi və texnoloji simpoziumlar, konfrans və seminarlar keçirilməli, ekspert, alim və digər mütəxəssislərin maliyyələşdirilməsi, başqa bir razılaşma irəli sürülmədiyində bu Protokola əsasən müəyyən edilir. Qarşı tərəf müştərək layihələrin həyata keçiriləcəyi yer daxil

olmaqla bütün beynəlxalq səyahət xərclərini öz üzərinə götürür. Göndərən tərəf öz alimlərinin tibbi yardım da daxil olmaqla tibbi sığortasını öz üzərinə götürməlidir. [1]

**Azərbaycan Milli Elmlər Akademiyası və Türkmənistan Elmlər Akademiyası arasında da elm sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb.**

Azərbaycan Respublikası ilə Türkmənistan arasında elmi əlaqələrin inkişafının zəruriliyini qeyd edərək, elm və innovasiyanın hər iki ölkənin iqtisadiyyatının inkişafında mühüm və zəruri amil olduğunu nəzərə alaraq, ikitərəfli elmi əməkdaşlığın dövlətlər və xalqlar arasındakı əlaqələrin möhkəmlənməsinə xidmət edəcəyinə əmin olaraq, aşağıdakılar barədə razılığa gəliblər. Bu Sazişin əsas məqsədi elm, müasir texnologiya və ennovasiya sahəsindəki əməkdaşlıq əlaqələrini möhkəmləndirmək və inkişaf etdirməkdir. Tərəflər öz səlahiyyətləri və milli qanunvericiliyə uyğun olaraq aşağıdakı əsas sahələr üzrə əməkdaşlıq edə bilər:

-Tərəflərin iqtisadi və sosial inkişafında mühüm əhəmiyyət və qarşılıqlı maraq kəsb edən birgə elmi-tədqiqat, elmi-texniki problemlərin yerinə yetirilməsi , birgə elmi konfransların simpozium, seminar və görüşlərin təşkili , elmi kadrların hazırlanması və attestasiyasının keçirilməsinə birgə hazırlıq , elmi informasiyanın, tədqiqat və nəşrlərin mübadiləsi, eləcə də əməkdaşlığın digər formaları həyata keçiriləcək.

-Tərəflər elmi mərkəzlər arasında birbaşa əlaqələrin yaradılması və genişləndirilməsi üçün imkan yaradacaqlar. Elmi mərkəzlər arasında əməkdaşlığın forma və istiqamətlərini müəyyənləşdirərkən hər iki ölkənin elmi inkişafını və mövzuların aktuallığını rəhbər tutacaqlar. Birgə tədqiqat layihələrinin həyata keçirilməsində marağı olan elmi mərkəzlər arasında fəaliyyətinin təşkilati, hüquqi və maliyyə şərtlərini müəyyənləşdirən ayrı-ayrı sazişlər imzalanacaq.

AMEA-nın Elmi İnnovasiyalar Mərkəzi Tacikistan Respublikası Milli Patent-İnformasiya Mərkəzi, Qazaxıstan Milli Elmi-Texniki İnformasiya Mərkəzi ilə informasiya mübadiləsi və əməkdaşlıq üzrə müqavilələr bağlayıb.[3]

## ƏDƏBIYYAT SIYAHISI

1.AMEA –nın Beynəlxalq Əlaqələr Şöbəsi ( Arxiv materiallar)
2 "Respublika" qəzeti, 2008-ci il, 13 aprel, səh. 2
3. http://www.azertag.com/
4. http:// www.millimeclis.az/
5. www.edu.gov.az
6. "Azərbaycan" qəzeti , 2004-cü il, 2 mart , səh. 2.

**Tarix və onun problemləri, № 2 2014**

**ГЮЛЬШАН ГУЧЕЙНОВА**

## НОРМАТИВНО-ПРАВОВАЯ БАЗА СОТРУДНИЧЕСТВА НАНА С ТЮРКСКИМИ ГОСУДАРСТВАМИ

С июня 1993 года внешняя политика нового стратегического курса на сегодняшний день, было основой концептуального подхода._Это проявилось в отношениях с тюркскими республиками._Отношения с тюркскими государствами предыдущих этапах, более международных и реализованных в виде многостороннего сотрудничества в рамках местных организаций на данном этапе в развитии двусторонних отношений с тюркскими странами Азербайджана начал показывать особые усилия, и это усилия были успешными. Социальные, экономические и культурные сферы, а также сотрудничество в области науки и образования был создан. Национальная Академия Наук Азербайджанской Республики в области науки, много соглашений турецких государств и протоколов, подписанных и успешно реализованы.

**GULSHAN HUSEYNOVA**

## COOPERATION FRAMEWORK BETWEEN THE NATIONAL ACADEMY OF SCIENCES AND THE TURKISH COUNTRIES

Since June 1993, the foreign policy of a new strategic course to date, and was the basis of the conceptual approach. This manifested itself in the relations with Turkic Republics. Relations with the Turkic States of the previous stages, more international and implemented in the form of multilateral cooperation within the framework of local organizations at this stage in the development of bilateral relations with the turkic countries of Azerbaijan began to show a special effort, and this effort has been successful. Social, economic and cultural spheres, as well as cooperation in the field of science and education was established. National Academy of Sciences of the Republic of Azerbaijan in the field of science, a lot of the Turkish States agreements and protocols signed and successfully implemented.

***Rəyçilər:* t.e.d. S.Süleymanova, t.e.d. İ.Məmmədov**

***BDU-nun "Türk xalqlarının tarixi" kafedrasının 10 fevral 2014-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №6)***